UOT: 379.85
Əfşan NƏRİMANLI
Lənkəran Dövlət Universiteti, sabiq doktorant
Quba Fizika,Riyaziyyat və İnformatika təmayüllü lisey
enerimanli@inbox.ru
https://doi.org/10.61226/12.3.4.2023.4

QUBA-XAÇMAZ REGİONUNUN RAYONLARINDA NƏQLİYYATIN, TURİZMİN VƏ İNFRASTRUKTURUN İNKİŞAFI (XX ƏSRİN SONU VƏ XXI ƏSRİN İLK İLLƏRİNDƏ)

Xülasə: Azərbaycan Respublikasında XX əsrin sonlarından başlayaraq həyata keçirilən sosial-iqtisadi inkişafa istiqamətlənmiş tədbirlər müstəqil ölkənin regionlarından biri kimi şimal-şərq ərazilərində də öz nəticəsini göstərməkdə idi. Aparılan çoxsahəli islahatlar nəticəsində Quba-Xaçmaz regionunda mövcud potensialdan səmərəli istifadə edilməklə infrastruktur yenilənmiş, istehsal müəssisələrinin fəaliyyəti bərpa olunmuş və daha da genişləndirilmişdir. Regionda özəlləşdirmə proqramlarının həyata keçirilməsi və azad sahibkarlıq mühitinin formalaşdırılması nəticəsində nəqliyyat və turizm sahəsində qeyri-dövlət sektorunun payı artmışdır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ölkədə yaratdığı ictimai-siyasi sabitlik, özəl münasibətlərin bərqərar olunması Quba-Xaçmaz regionunda bütün fəaliyyət sahələrinin inkişafına güclü təkan vermişdir.

Heydər Əliyevin yaratdığı milli dövlətçiliyin müasir modeli öz unikallığı ilə fərqlənməklə yanaşı, Azərbaycanın inkişaf istiqamətlərini də özündə birləşdirir. XX əsrin sonlarında dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri də qeyri-neft sektorunun daha sürətli inkişafı olmuşdur. Dövrün spesfik xüsusiyyəti həm də ondan ibarətdir ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etməklə öz müqəddəratını həll etmək imkanını əldə etdi. Düzgün və ardıcıl islahatlar nəticəsində Quba-Xaçmaz regionunda da iqtisadiyyatın bütün sahələrində nəzərəçarpan irəliləyişlər əldə olunmağa başlandı. Hesab edirik ki, respublikada yaranmış stabillik ilk növbədə regionun infrastruktur inkişafının başlıca amilidir. Dövlət quruculuğunun möhkəmləndirilməsinə, idarəetmədə struktur dəyişikliklərinə, iqtisadiyyatın daha da inkişafına yönəldilmiş bir sıra mühüm fərmanların verilməsi nəticəsində bu regionun sosial-iqtisadi inkişafında çox böyük nailiyyətlər əldə edildi. Regionda ictimai-siyasi sabitlik, sağlam mühit və işgüzar şərait yaradıldı.

Açar sözlər: Region, Quba, Xaçmaz, Qusar, turizm, inkişaf, infrastruktur, nəqliyyat.

Afshan NARIMANLI

DEVELOPMENT OF SHIPPING, TOURISM AND INFRASTRUCTURE IN THE REGIONS OF THE GUBA-KHACHMAZ REGION (AT THE END OF THE 20TH CENTURY AND THE BEGINNING OF THE 21TH CENTURY)

Abstract: Measures aimed at socio-economic development in the Republic of Azerbaijan since the end of the 20th century showed their results in the north-eastern areas as one of the regions of the independent country. As a result of multi-sectoral reforms, the infrastructure has been renewed, the activity of production enterprises has been restored and further expanded in the Guba-Khachmaz region, using the existing potential effectively. As a result of the implementation of privatization programs and the formation of a free entrepreneurship environment in the region, the share of the non-state sector in the field of transport and tourism has increased. The socio-political stability and establishment of private relations created by the national leader of the Azerbaijani people, Heydar Aliyev, gave a strong impetus to the development of all areas of activity in the Guba-Khachmaz region.

The modern model of national statehood created by Heydar Aliyev is distinguished by its uniqueness, but also incorporates the development directions of Azerbaijan. At the end of the 20th century, one of the priority directions of the state's economic policy was the faster development of the non-oil sector. The specific feature of the period is also that the Republic of Azerbaijan got the opportunity to decide its own destiny by restoring its independence. As a result of correct and consistent reforms, significant progress was made in all areas of the economy in the Guba-Khachmaz region. We believe that the stability created in the republic is the main factor in the infrastructure development of the region. As a result of the issuance of a number of important decrees aimed at the strengthening of state building, structural changes in management, further development of the economy, great achievements were made in the socio-economic development of this region. Socio-political stability, healthy environment and business conditions were created in the region.

Keywords: Region, Guba, Khachmaz, Gusar, tourism, development, infrastructure, transport.

Афшан НАРИМАНЛЫ

РАЗВИТИЕ ТРАНСПОРТА, ТУРИЗМА И ИНФРАСТРУКТУРЫ В РАЙОНАХ ГУБА-ХАЧМАЗСКОГО РАЙОНА (В КОНЦЕ 20 ВЕКА И НАЧАЛЕ 21 ВЕКА)

Абстракт: Меры, направленные на социально-экономическое развитие Азербайджанской Республики с конца XX века, показали свои результаты в северо-восточных районах как одном из регионов независимой страны. В результате многоотраслевых реформ в Губа-Хачмазском районе была обновлена инфраструктура, восстановлена и расширена деятельность производственных предприятий, эффективно используя имеющийся потенциал. В результате реализации программ приватизации и формирования свободной предпринимательской среды в регионе увеличилась доля негосударственного сектора в сфере транспорта и туризма. Социально-политическая стабильность и установление частных отношений, созданные общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым, дали мощный импульс развитию всех сфер деятельности в Губа-Хачмазском районе.

Современная модель национальной государственности, созданная Гейдаром Алиевым, отличается своей уникальностью, но также включает в себя направления развития Азербайджана. В конце XX века одним из приоритетных направлений экономической политики государства стало опережающее развитие ненефтяного сектора. Особенностью этого периода является также то, что Азербайджанская Республика получила возможность самостоятельно решать свою судьбу, восстановив свою независимость. В результате правильных и последовательных реформ во всех сферах экономики Губа-Хачмазского района достигнут значительный прогресс. Мы считаем, что созданная в республике стабильность является главным фактором инфраструктурного развития региона. В результате издания ряда важных указов, направленных на укрепление государственного строительства, структурные изменения в управлении, дальнейшее развитие экономики, достигнуты большие успехи в социально-экономическом развитии этого региона. В регионе создана социально-политическая стабильность, здоровая окружающая среда и условия для ведения бизнеса.

Ключевые слова: Регион, Губа, Хачмаз, Гусар, туризм, развитие, инфраструктура, транспорт.

Giriş. Quba-Xaçmaz regionunun əlverişli şəraitə malik olması bu ərazinin özünəməxsus infrastruktur sahələrinin inkişafına zəmin yaradırdı. Həmin infrastruktur sahələr içərisində regionun sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən nəqliyyat infrastrukturudur. Xüsusilə ərazidən

beynəlxalq əhəmiyyətli dəmir yolu və avtomobil yollarının keçməsi bu ərazinin daxili və xarici iqtisadi əlaqələrinin inkişafına təsir göstərən amillərdən hesab olunur. Azərbaycan Respublikasını Rusiya Federasiyası ilə birləşdirən nəqliyyat və kommunikasiya xətlərinin hamısının məhz bu regiondan keçməsi böyük əhəmiyyət daşıyır. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra keçid dövrünə xas olan böhranlı proseslər başqa sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da özünü göstərirdi. Müşahidə olunan geriliyin qarşısı aparılan genişmiqyaslı islahatlar nəticəsində alınmağa başlanıldı. Regionunun iqtisadiyyatının prioritet sahələrindən olan yol-nəqliyyat kompleksinin əhalinin keyfiyyətli və müasir nəqliyyat xidmətlərinə artan tələbatını təmin edən səviyyədə qurulması üçün burada zəruri tədbirlər həyata keçirilirdi. Bəzi dağ çaylarının üzərində körpülər salınır, bəndlər qurulurdu[12, v.108-109].

Nəqliyyatın vəziyyəti. Regionun iqtisadi inkişafının təmin olunmasında, yerli əhaliyə və turizm zonası olduğundan bura gələn qonaqlara keyfiyyətli nəqliyyat xidmətinin təmin edilməsi sahəsində yol və nəqliyyat kompleksinin inkişafını vacib amillərdən biri hesab olunurdu. Bütün bunları nəzərə alan ölkə başçısı Heydər Əliyev bu regionda avtomobil yollarının, kommunikasiya xətlərinin inşası, yenidənqurulması və inkişafı layihələrinin həyata keçirilməsini daim diqqətində saxlayırdı. Məhz bu qayğının sayəsində nəqliyyatın ayrı-ayrı növlərinin inkişafında müsbət meyllər formalaşdı. Beləliklə, Quba-Xaçmaz regionunda nəqliyyat sektoru əsas infrastrukturlardan biri olaraq dayanıqlı inkişafa başladı. Nəqliyyat sektoruna investisiyaların yönəldilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması, körpülərin tikilməsi, nəqliyyatın hərəkət heyətinin yeniləşməsi və s. işləri davamlı aparılırdı. Ölkədə transmilli layihələrin səmərəli fəaliyyəti də bu ərazidə nəqliyyat sahəsinin inkişafına öz müsbət təsirini göstərirdi. Quba-Xaçmaz regionunun ərazisindən keçən avtomobil yolları, dəmir yolu, magistral neft, qaz və su kəmərləri, telekommunikasiya xətləri ölkənin nəqliyyat-iqtisadi əlaqələrinin inkişafında mühüm əhəmiyyət daşıdığından görülən tədbirlər ümummilli xarakterə malik idi.

Özəlləşdirmə Proqramına uyğun olaraq rayonlarda dövlət mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələrinin ayrı-ayrı şəxslərin və özəl sektorun istifadəsinə verilməsi bu regionnun nəqliyyat sektorunda yük daşınmasının payını bir neçə faiz yüksəltdi[13, s.18]. Ərazi üzrə iqtisadiyyatın bir çox sahələrində olduğu kimi nəqliyyat xidmətində də sahibkarlıq fəaliyyəti geniş inkişaf tapdı. Lakin bu sahədə bir sıra problemlər hələ də qalmaqda idi. Sərnişin və yük daşınmasında pərakəndəlik və özbaşınalığa yol verilir, vergidən yayınma halları müşahidə olunurdu. Bütün bu neqativ halları aradan qaldırmaq məqsədilə hər bir rayonda Nəqliyyat Departamenti yaradıldı[10, v.25]. Departament rayonlarda daxili nəqliyyat xidmətində çoxşaxəliliyi və paralelliyi aradan qaldırır, nəqliyyatda olan inhisara qarşı mübarizə aparır, şəhər və rayondaxili sərnişin daşınmalarının mərkəzləşdirilmiş qaydada idarə olunmasını həyata keçirirdi. Bu qurumun yaradılması həm dövlətin büdcəsinə daxil olan gəlirlərin artmasına, həm də xidmət səviyyəsinin yüksəldilməsinə şərait yaratdı. Departament sərnişin daşınmasında iştirak edən fiziki və hüquqi şəxslərin nəqliyyat vasitələrini qeydiyyata götürür, onlara lisenziya verir, marşrut kartlarının tətbiqi üçün tədbirlər planı hazırlayıb həyata keçirirdi. Qeyd edək ki, təşkilat dövlət idarəsi olaraq rayon icra hakimiyyətlərinin nəzdində fəaliyyət göstərirdi. Buna görə də İcra Hakimiyyəti strukturuna daxil olan idarələrlə, ilk növbədə Rayon Vergi İdarəsi, Rayon Polis Şöbəsi və Dövlət Yol Polisi Bölməsi ilə sıx əməkdaşlıq edilirdi. Nəticədə, 1996-cı ildə yükdaşıma həcminə görə əvvəlki illə müqayisədə 39%, sərnişindaşıma nəqliyyatının həcmi isə 7% artmışdır [5, v.52; 11]. Bu rəqəmlər sonrakı illərdə də artan faizlə müşahidə olunur.

Regionun iqtisadiyyatında dəmir yolu nəqliyyatı xüsusi yer tutur. Dəmiryolu nəqliyyatı MDB ölkələri ilə respublikanın paytaxtı Bakı şəhəri arasında sərnişin və yük daşınmasında əsas rol oynayır. Bu ərazidə fəaliyyət göstərən dəmiryolunun uzunluğu 123 km təşkil edir ki, bunun da 51%-i Siyəzən və Dəvəçi, 49%-i isə Xaçmaz rayonunun payına düşür [1, s.70]. Məlum siyasi proseslərlə əlaqədar 90-cı illərin əvvəllərində dəmir yolu nəqliyyatı da iflic vəziyyətinə düşmüşdür. Lakin 90-cı illərin sonlarından

etibarən bu sahədə başlanan dirçəliş XXI əsrin ilk illərində özünü çox qabarıq surətdə göstərməyə başladı. 2000-ci ildə Xaçmaz dəmiryolu vağzalının 100 iliyi ilə əlaqədar olaraq vağzal və onun ətrafında aparılan yenidənqurma, təmir-tikinti və abadlıq işləri vağzalın simasını tamamilə dəyişdi və gözəlləşdirdi.

Quba-Xaçmaz regionu üzrə bütün kateqoriyalardan olan avtomobil yollarının ümumi uzunluğu 1883 km təşkil edir. Region daxilində avtomobil nəqliyyatının inkişafı rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri və qəsəbələri arasında yükdaşınmanın intensivləşdirilməsinə və sərnişinlərin rahat daşınmasına təsir göstərən ən başlıca faktordur. İqtisadiyyatın digər sahələri ilə müqayisədə avtomobil nəqliyyatı sahəsində özəlləşdirmənin daha sürətlə həyata keçirilməsi regionda yük və sərnişin daşınmasının səviyyəsini yüksəltdi, xidmətin həcminin artmasına səbəb oldu. Çünki yük və sərnişin daşınmasında sərbəst və azad rəqabət mövcud idi. Nəqliyyat sahəsi tam şəkildə xüsusi sahibkarlığa əsaslanan fiziki qurumlar tərəfindən həyata keçirilirdi. Sərnişindaşımada artıq xarici ölkə istehsalı olan rahat mikroavtobuslardan istifadə olunurdu. Bu da nəqliyyatçılar arasında rəqabəti artırır, sərnişinlərin mənzil başına daha rahat və ucuz qiymətlə çatmasını təmin edirdi. Əsl sahibkara çevrilən əvvəlki sürücülər heç bir sifarişi gözlətmədən öz servis xidmətlərini təklif edirdilər. Bunun nəticəsi idi ki, payaxt Bakıdan, respublikanın digər şəhər və rayonlarından, həmçinin qonşu Rusiya Federasiyasından gündəlik 10 min tonlarla müxtəlif ərzaq məhsulları, tikinti materialları və s. mal və məhsullar gətirilirdi.

Turizmin inkişafı. Özünün füsunkar təbiəti, zəngin meşələri ilə bütün dünyada tanınan Quba-Xaçmaz regionunda turizmin inkişafına xüsusi diqqət yetirilirdi. Bu regionda Qəçrəş, Balbulaq, Uzunmeşə, Sədərək, Palma, Malibu kimi onlarla istirahət guşələri yaradıldı. Regionun ən böyük rayonu sayılan Quba tarixən qədim elm, təhsil, mədəniyyət mərkəzi olmaqla yanaşı, həm ticarət, həm də siyasi baxımdan strateji əhəmiyyətli bir rayondur. Heç təsadüfi deyildir ki, 1998-ci il oktyabrin 3-də regiona səfəri zamanı Heydər Əliyev Qubada seçicilərlə görüşərkən demişdir: *"Quba Azərbaycanın ən şimal nöqtəsində yerləşən gözəl bir diyar olaraq, eyni zamanda Azərbaycanın şimal qapısı, Şimal ilə Azərbaycanı, bütöv Azərbaycanı birləşdirən və vasitəçilik edən bir diyardır"* [4].

Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəlməsi, iqtisadiyyatının sürətlə inkişafı bu ölkəyə marağın artmasına səbəb olur, respublikaya gələn əcnəbilərin ildən-ilə çoxalmasına, turizm fəaliyyətinin genişlənməsinə şərait yaradırdı. Quba-Xaçmaz regionu mühüm kurort-sanatoriya regionlarından biri olmaqla zəngin təbii rekreasiya ehtiyatlarına malikdir. Ölkə Prezidenti Heydər Əliyevin Azərbaycanın şimal bölgəsində insanların istirahəti üçün hər cür şəraitin yaradılmasına daim diqqət və qayğısı hiss olunurdu. Məhz bunun nəticəsi idi ki, bu regiona investisiya axını güclənir, yeni istirahət guşələri, turizm obyektləri tikilməyə başlanılırdı. Dəvəçi rayonu ərazisində "Qalaaltı" müalicə suyu və Quba rayonunun Xaltan və Cimi kəndləri ətrafındakı termal-mineral bulaqların əsasında yaradılmış müalicə mərkəzləri ilboyu fəaliyyət göstərirdi. Quba rayonundakı Qəçrəş meşəliyi, Afurca çayı yaxınlığında hündürlüyü 80 metrə çatan əzəmətli şəlalə və dərinliyi 400-600 metrə çatan kanyonvari Təngəaltı dərəsi, "Cənnət bağı" əyləncə-istirahət kompleksi bu gün də xarici və yerli turistləri ilin bütün fəsillərində özünə cəlb etməkdədir. Müasir üslubda tikilmiş Bal bulaq, Uzunmeşə istirahət guşələri bu regionu nəinki Azərbaycanda, xarici ölkələrdə də tanıdırdı. Bu səbəbdəndir ki, Quba, Qusar, Xaçmaz, Dəvəçi rayonlarında yerləşən turizm obyektlərinə ildə minlərlə yerli və xarici turist gəlirdi. Ölkə Prezidentinin 27 avqust 2002-ci il tarixli sərəncamı ilə "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı üzrə Dövlət Proqramı" qəbul edildi. Bununla, regionda turizmin inkişafına diqqət daha da artırıldı.

Respublikanın ən füsunkar guşələrindən biri, təbii landşaft xüsusiyyətlərinə, fauna və florasına görə seçilən, kurort zonası kimi tanınan Yalama-Nabran zonasıdır. Buraya respublika əhalisi ilə bərabər xarici ölkə vətəndaşları da istirahətə gəlirlər. Aparılan infrastruktur dəyişikliklər zamanı turizmin inkişafı üçün Nabranda yeni ponsionatlar, istirahət mərkəzləri tikilib istifadəyə verildi. Artıq sahibkarlar, iş adamları tərəfindən bu zonanın müasir və dünya memarlıq üslubunda tikintisinə xərclədiyi vəsaitin

miqdarı 10 milyardlarla manat təşkil edirdi [6, v.15-16]. Nabran kurort zonasında aparılan geniş tikinti quraşdırma işləri, bir sıra infrastruktur obyektlərin istifadəyə verilməsi, müxtəlif özəl xidmət müəssisələrinin yaradılması regionda, eləcə də Nabran zonasında yaşayan minlərlə şəxsin yeni iş yerləri ilə təmin olunmasına, istehsal olunan kənd təsərrüfatı məhsullarının satış üçün bazarının yaranmasına müsbət təsir göstərirdi.

İnfrastruktur dəyişikliklər. Regiona daxil olan hər bir rayonda infrastruktur dəyişikliklərin aparıldığı arxiv materiallarından da görünür[14]. Tikinti sahəsinə əsaslı kapital qoyuluşu hesabına bu sahənin inkişafı üçün zəmin yaradılırdı. Quba şəhərinin mərkəzi meydanında "Dədə Qorqud" abidəsi ucaldıldı, "Müstəqilliyimiz əbədidir" parkı salındı. 1918-ci ildə erməni qəsbkarları tərəfindən vəhşicəsinə qətlə yetirilən qubalıların xatirəsini əbədiləşdirmək məqsədilə "Xatirə kompleksi" tikildi. Şəhər avtovağzalının qarşısında əzəmətli at heykəli ucaldıldı, Quba-Qəçrəş yolunun sol tərəfində "Heydər bulağı" tikilib əhalinin istifadəyə verildi. Quba şəhərinin giriş hissəsindən avtovağzala qədər olan təxminən 4 km-lik məsafədə, Quba-Bakı yolunun ikitərəfli hissəsində köhnə, sıradan çıxmış dirəklər müasir tipli dirəklərlə əvəz olundu. Qubanın giriş hissəsində isə rəmzi məna daşıyan "Alma" simvolu yerləşdirildi [9, v.6-8].

Siyəzən rayonunun infrastruktur inkişafı isə buranın neft sənayesinin inkişafı ilə birbaşa bağlı idi. Faktlardan da görünür ki, iqtisadiyyatının əsasını neft sənayesi təşkil etdiyi üçün bu sahənin inkişaf etməsi rayonun ümumi inkişafına öz təsirini göstərirdi. Rayonda tikilmiş sosial və digər obyektlərin əksəriyyəti neft sənayesi hesabına tikilirdi. Belə ki, "Siyəzənneft" in sifarişi ilə əsaslı kapital qoyuluşu hesabına tikintisinə hələ 1990-cı ildə başlanılan 60 çarpayılıq xəstəxana, bir növbədə 150 xəstə qəbul edə bilən poliklinikanın tikintisi başa çatdırıldı. Rayonda uşaq poliklinikası, şəhidlər parkında bulaq, neftçi şəhidlərə həsr edilmiş abidə və Qalaaltı sanatoriyasında bulaq da tikildi [15, v.10; 18, v.7]. 1999-cu ildə Siyəzəndə "Xeyriyyə fondu" yaradıldı ki, həmin fonddan ayrılmış vəsait ilə "Şəhidlər xiyabanı"nda 100 milyon manatdan artıq dəyərində yenidəqurma işləri aparılaraq burada "Şəhidlər kompleksi" ucaldıldı [16, v.17-18].

25 noyabr 2000-ci il tarixdə baş vermiş zəlzələ də Siyəzən rayonunda bir sıra dağıntılara səbəb oldu. Belə ki, bu zəlzələdən 18 yaşayış evi qəza vəziyyətinə düşdü, 930 yaşayış evi isə müxtəlif dərəcədə zədə aldı [17, v.3-6]. Zəlzələ zamanı dağılan evlərin çoxluğundan bu evlər tikilərkən işlərin keyfiyyətsiz aparıldığı məlum olur. Texniki təhlil zamanı o da məlum olur ki, rayonda görülən işlər keyfiyyətsiz aparıldığından və lazımınca qorunmadığından eyni işlər hər il görülür, lüzumsuz vəsait xərclənirdi ki, bu da nəzərdə tutulan işlərin həyata keçirilməsinə imkan vermirdi.

2000-ci ildə Xaçmaz şəhərinin mərkəzində Dağıstan-Azərbaycan dostluğunun şərəfinə abidə-kompleksi ucaldıldı, həmçinin "Aygün" şadlıq evi açıldı. Regionun şəhərləri yeni yaradılmış binalar hesabına abadlaşırdı. 2001-ci ildə Xaçmaz rayonunun mərkəzində Heydər Əliyev adına "İdeoloji Mərkəz" yaradıldı, "Teatr meydanı"nda görkəmli astronom N.Tusinin heykəli ucaldıldı [6, v.15]. 2001-ci ildə Qusar şəhərində Şəhidlər xiyabanı, General Mahmud Ədilov adına meydan istifadəyə verildi. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Quba rayonunda respublikada ilk dəfə olaraq "Şəhidlərin xatirə muzeyi" tikildi [8, v.62]. Qubanın çoxəsrlik tarixində ən böyük tikili olan Quba Olimpiya İdman Kompleksi tikilib istifadəyə verildi. Dünya standartlarına cavab verən bu kompleksdə o zaman respublikanın ən böyük üzgüçüluk hovuzu, örtülü əl oyunları stadionu, futbol, voleybol, basketbol meydançaları, mehmanxana kompleksi inşa olundu.

Alman Texniki Əməkdaşlıq Təşkilatının xətti ilə Dəvəçi rayonu ərazisində geniş tikinti, təmir və abadlıq işləri aparılırdı[2, v.41]. Küveyt İslam İrsinin "Dirçəliş" xeyriyyə cəmiyyətinin vəsaiti hesabına Pirəbədil kəndində salonunun sahəsi 80 kvadratmetr olan məscid tikildi. Həmçinin rayonda BP neft kompaniyasının xətti ilə "Ümid" təşkilatı tərəfindən də tikinti təmir işləri aparılırdı. 2003-cü ildə "Dəvəçi-Dəyirmanı" ASC-nin rəhbərliyinin maliyyə dəstəyi ilə "Günel" şadlıq sarayı tikilib əhalinin

istifadəsinə verildi [3, v.24-25]. Ümumiyyətlə, yeni infrastrukturanın təşkilində beynəlxalq təşkilatların və xarici ölkələrin regionda həyata keçirdikləri layihələr müsbət nəticə verirdi, onların təcrübəsi öyrənilir və geniş istifadə olunurdu. Aparılan tikinti-abadlıq işləri əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına, həmçinin fərdi mənzil tikintisinin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarırdı. İnfrastrukturun inkişafı, abadlıq-quruculuq işlərinin həyata keçirilməsində yerli icra orqanları da mühüm əhəmiyyət daşıyırdı. Təkcə 2001-ci il ərzində Xaçmaz rayonunun bələdiyyələri tərəfindən yolların təmir olunmasına 80 milyon manatdan artıq vəsait xərcləndiyi məlumdur [7, v.17].

Nəticə. Məlum olduğu kimi müstəqilliyin bərpasının ilk illərində SSRİ-yə daxil olan digər müttəfiq respublikalar ilə iqtisadi əlaqələrin qırılması respublikamızda bütün sahələrə, o cümlədən nəqliyyatın, infrastrukturun, turizmin inkişafına ciddi ziyan vurmuşdur. Bu zaman Quba-Xaçmaz regionunda yerləşən turizm obyektləri demək olar ki, öz fəaliyyətlərini tamamilə dayandırmışdır. Məhz ölkədə geniş islahatların həyata keçirilməsi ilə 1997-ci ilin əvvəllərində tənəzzül dayandırıldı, bu sahədə irəliləyişə nail olunmağa başlandı. Dövlətin daxili siyasətinə uyğun olaraq kiçik və orta sahibkarlığın inkişafına yönələn tədbirlər ölkənin şimal-şərq rayonlarında emal-sənaye sahələrinin, yüngül və yeyinti sənayesinin, nəqliyyat və infrastrukturun, ölkədaxili və beynəlxalq turizmin inkişafına zəmin yaratdı.

Ədəbiyyat

1. Azərbaycan. Regionların tarazlı inkişafı. Xaçmaz-5 il // - Bakı: İqtisadiyyat qəzetinin xüsusi buraxılışı, - 2008. 188 s.
2. Dəvəçi Rayonu İcra Hakimiyyəti Başçısının yanında Kabinetin iclas protokolları(№18-22, 18 sentyabr-21 dekabr 2001-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Şabran filialı, Fond № 36, siyahı № 1,iş № 144, vərəq – 45.
3. Dəvəçi Rayonu İcra Hakimiyyəti Başçısının yanında Kabinetin iclas protokolları(№10-12, 15noyabr-25dekabr 2003-cü il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Şabran filialı, Fond № 36, siyahı № 1, iş № 179, vərəq – 39.
4. Heydər Əliyevin seçicilərlə görüşü // Şəfəq. - 2002, 10 oktyabr. – s. 3
5. Xaçmaz Rayonu İcra Hakimiyyəti Başçısının yanında Kabinetin iclas protokolları(1997-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Xaçmaz filialı, Fond № 1, siyahı № 1, iş № 79, vərəq – 178.
6. Xaçmaz Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolları(2001-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Xaçmaz filialı, Fond № 1, siyahı № 1, iş № 11, vərəq – 275.
7. Xaçmaz Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu(№16, 31 oktyabr 2001-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Xaçmaz filialı, Fond № 1, siyahı № 1, iş № 137, vərəq – 19.
8. Quba Rayonu İcra Hakimiyyəti Başçısının yanında Kabinetin iclas protokolun (№ 57, 26 yanvar 1998-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Quba filialı, Fond № 389, siyahı № 1, iş № 274, vərəq - 93
9. Quba Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№ 10, 30 may 2000-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Quba filialı, Fond № 389, siyahı № 1, iş № 348, vərəq – 28.
10. Quba Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu (№ 03, 03 fevral 2001-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Quba filialı, Fond № 389, siyahı № 1, iş № 390, vərəq – 40.

11. Quba Rayon Nəqliyyat Departamentinin müsahibəsi // Şəfəq. - 2001, 10 fevral. – s. 2.
12. Qusar rayonu İcra Hakimiyyəti Başçısının yanında Kabinetin
iclas protokolları (1996-cı il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Quba filialı, Fond № 395, siyahı № 1, iş № 88, vərəq – 410.
13. Müstəqil Azərbaycan 20 il(1991-2011). - Zaman qəzetinin xüsusi buraxılışı. - 2011. - 178s.
14. Nərimanlı, Ə.E. Ümummilli lider Heydər Əliyevin Quba-Xaçmaz regionunun sosial-iqtisadi inkişafina göstərdiyi qayğı // - Bakı: AMEA Tarix İnstitutu, Elmi əsərlər, - 2018. -c. 73, - s.146-154.
15. Siyəzən Rayonu İcra Hakimiyyəti Başçısının yanında Kabinetin iclas protokolu(№ 01, 29 yanvar 1998-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Siyəzən filialı, Fond № 2, siyahı № 1, iş № 117, vərəq – 54.
16. Siyəzən Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu(№ 06-07, 14 aprel-26 may 2000-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Siyəzən filialı, Fond № 2, siyahı № 1, iş № 160, vərəq – 24.
17. Siyəzən Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu(№ 03, 03 mart 2001-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Siyəzən filialı, Fond № 2, siyahı № 1, iş № 170, vərəq – 9.
18. Siyəzən Rayonu İcra Hakimiyyəti Başçısının yanında Şuranın iclas protokolu(№ 11, 27 iyun 2001-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivinin Siyəzən filialı, Fond № 2, siyahı № 1, iş № 178, vərəq – 11.

Məqalənin redaksiyaya daxilolma tarixi: 22.11.2023
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.12.2023
Məqalənin çapa qəbul olunma tarixi: 10.12.2023